16.Əliyev H.Ə. Azərbaycan Xalq Cumhuriyyətinin 80 illiyi münasibətilə nitq. “Azərbaycan” qəzeti, 30 may 1998-ci il

## ТРАГЕДИЯ 30-Х ГОДОВ

***Вейисов Ариф Гаджи оглы, Бадалова Тарлан Саттар кызы,***
***Вейисова Мелек Ариф кызы***

***Резюме***

Статья посвящена вопросfм начала массовых репрессий в Азербайджане, клейма празднику « Новруз», разрушению культурно-просветительских памятников, увеличения численности «врагов народа», прочих вредителей и напрасных мер применяемых против них.

Одновременно, продолжению основной трагедии Азербайджанского народа до 1938 года, уничтожению руками бандитских группировок при попустительстве властей сотен тысяч азербайджанских представителей, одним словом, уничтожению всех «думающих голов» со стороны так называемых «троек».

## 30^S^ TRAGEDY OF THE YEARS

***Veyisov Arif Haji, Badalova tarlan Sattar, Veyisova Malak Arif***

***Summaru***

Article has been devoted 30^S^ beginnig in Azerbaijan of popular repressions “disintegration of the monuments of adjoining material culture with increase the number of and see in vain of the punishment meausures against them, brand of the people enemies, with” contrary revolution brand of the novruz holiday problem.

Also basic tragedy has found Azerbaijan representative thousands of destroying by “thirds” of all intelects thinpring with word of contrary of Azerbaijan people by hand of the robber groups using from authority of counting as with 1938s. In the article.

***Rəyçi: İmran Məmmədov***
***İctimai və təbiət elmləri kafedrasının 18 oktyabr 2022-ci il tarixli iclasın 05 sayi protokolu***
***Daxil olma tarixi 26 oktyabr 2022-ci il***

**UOT: 94.**

# LİNDON CONSONUN HAKİMİYYƏTİNİN İLK İLLƏRİNDƏ ABŞ-IN LATIN AMERİKASI REGİONUNDA SİYASƏTİ

***dosent Bəxtiyarlı Hüseyn Əlisahib oğlu***
***Gəncə Dövlət Universiteti***

**Xülasə*:*** *Məqalədə ABŞ prezidenti L. Consonun hakimiyyətinin ilk dövründə Latın Amerikası regionunda yeritdiyi siyasət araşdırılır. Qeyd edilir ki, Kennedinin vəfatından sonra siyasi hakimiyyətə gələn L. Conson Latın Amerikasına münasibətdə fərqli siyasi xətt tutmağa başladı. Belə ki, tezliklə elan edildi ki, “Böyük dəyənək” siyasətinə dönüş baş verir. Əslində bununla region ölkələrinin sosial-iqtisadi yüksəlişi üzərində ABŞ-ın təsir gücü artırılırdı. Təbii ki, Kennedinin siyasəti ilə qismən inkişaf edən edən Latın Amerikası ölkələri yenidən despotizmin təsirini qəbul etmək istəmirdi. Buna baxmayaraq, ABŞ-ın hakim dairələri yeni siyasəti məcburi olaraq tətbiq etməyə çalışırdılar. Tezliklə, faktiki şəkildə ABŞ-ın regionda siyasi nüfuzu özünü göstərməyə başladı. Artıq, ABŞ Latın Amerikasında özünü hakim qüvvə kimi aparır və bununla ayrı-ayrı Latın Amerikası ölkələrinin daxili məsələlərinə müdaxilə edirdi. Bundan narazı qalan qüvvələr ABŞ-a güclü etiraz edir və onun siyasi gücünü tanımayacaqlarını bəyan edirdi. Bütün bunlar regionda siyasi sabitliyə öz təsirini göstərməyə bilməzdi.*

**Açar sözlər:** Hakimiyyət, Region, Siyasət, Sosial, İqtisadi
**Ключевые слово**:Правительство, Регион, Политика, Социальное, Экономическое
**Key words:** Government, Region, Politics, Social, Economic

Lindon Beyns Conson 27 avqust 1908-ci ildə fermer ailəsində anadan olmuşdur. O, 1930-cu ildə Müəllimlər kollecini bitirmiş, bir müddət dərs demişdir. 1939-1948-ci illərdə ABŞ Demokratlar Partiyasından Nümayəndələr palatasının üzvü, 1949-1961-ci illərdə Texas ştatından senator, 1953-1960-cı illərdə Senatda demokratların lideri olmuşdur.

1960-cı ildə partiyadaxili ilkin seçiklərdə ABŞ prezidentliyinə namizədliyini irəli sürmüş, lakin, Con Kennediyə məğlub olmuşdur. Kennedi onun cənublu olmasını nəzərə alaraq, seçkilərdə cənub ştatlarının dəstəyini almaq məqsədilə Consona vitse-prezident postunu təklif edir və bu cütlük seçkilərdə qələbə qazanır. 1961-ci il yanvarın 20-də səlahiyyətlərinin icrasına başlayan Lindon Conson 1963-cü il 22 noyabr tarixində Con Kennedinin öldürülməsindən dərhal sonra and içərək prezident vəzifəsini tutmuşdur.

Onun hakimiyyət dövrü cənub ştatlarında hökm sürən irqi ayrıseçkiliyin aradan qaldırılması, ümumi tibbi sığortanın tətbiqi, “Yoxsulluğa qarşı mübarizə” proqramının qəbulu və ABŞ-ın Vyetnamdakı hərbi iştirakının artması və müharibə-nin qızışması ilə xarakterizə olunur.

Conson 22 yanvar 1973-cü ildə keçirdiyi sayca üçüncü infarktdan vəfat etmişdir. Göründüyü kimi O, bundan əvvəl iki dəfə infakt keçirmiş və bir müddət xəstəlikdən əziyyət çəkmişdir.

1963-cü il noyabrın 22-də C.Kennedi növbəti prezident seçkiləri kampaniyası ilə əlaqədar ölkəni gəzərkən Texas ştatının Dallas şəhərində öldürüldü. Onun ölümü “Əsrin faciəsi” hesab edildi. Bu məsələ indiyə qədər müəmmalı bir şəkildə qalır. Con Kennedinin ölümündən sonra vitse-prezident Lindon Conson prezident kürsüsünə əyləşdi. Qərarlarını həyata keçirmək üçün hər cür üsuldan, hətta yalvarmaqdan belə çəkilməyən Lindon Conson yaxşı dərk edirdi ki, Con Kennedidən sonra nüfuz qazanmaq üçün ən yaxşı vasitə onun başladığı işi davam etdirməkdir. Onun konqresə təklif etdiyi proqramda federal büdcə kəsirini ləğv etmək, vergi işini nizama salmaq, mülki məsələyə dair qanunvericilik aktı qəbul etmək, yoxsulluğa qarşı müharibə elan etmək və digər məsələlər öz əksini tapmışdı.

1964-cü ilin fevralında Lindon Conson vergi islahatı haqqında qanunu konqresdə keçirməyi bacardı. Həmin qanuna görə gəlirin müəyyən hissəsi qədər vergi müəyyən edillirdi. 1964-cü ilin martında yoxsulluğa qarşı müharibə, iyulunda isə mülki hüquq haqqında qanun qəbul olundu. Mülki hüquq haqqında qanuna əsasən işə götürülmədə, ictimai yerlərdə ağlarla qaralara eyni hüquq verilirdi. 1965-ci ildə seçki hüququ haqqında qanununun qüvvəyə minməsi ilə zənci əhalinin seçkilərdə iştirakı təmin edilmiş oldu.

Minimum saat-hesabı əmək haqqı 1961-ci ildəki 1,25 dollardan 1968-ci ildə 1,70 dollara çatdırıldı. 1967-ci ildə hər həftəlik orta əmək haqqı 102 dollar təşkil edirdi, iş həftəsi isə 38,2 saat oldu (4,1). Fermerlərə subsidiyalar və kreditlər artırıldı. 1964-cü ildə verilmiş “Vətəndaşların bərabər hüquqları haqqında” qanunda cinsi əlamətlərə görə ayrı-seçkilik qadağan edildi. Bütün bunlar Consona və demokratlar partiyasına rəğbət yaratdı.

1964-cü ilin prezident seçkilərində o respublikaçılar partiyasından namizədliyi irəli sürülmüş Harri Qolduoterə qarşı səslərin əksəriyyətini toplayaraq qalib gəldi. O, prezident kürsüsünə yenidən əyləşdikdən sonra 1965-ci ildə konqresdə “Böyük cəmiyyət qurmaq” proqramı ilə çıxış etdi.

Lindon Consonun “Böyük cəmiyyət qurmaq” arzusu əslində kağız üzərində qaldı. Onun sosializmin alternativi olan bir cəmiyyət yaratmaq istəyi reallığa çevrilmədi. Onun yoxsulluqla mübarizə planı da tam həyata keçirilmədi. Lindon Conson dövründə raket texnikasının inkişafı üçün vəsait daha da yüksəldi. Latın Amerikasındakı beynəlxalq münasibətlər ABŞ-ın xarici siyasətinə böyük təsir göstərdi.

Latın Amerikasında öz mövqelərini saxlamaq üçün ABŞ çoxsaylı vasitələrdən-siyasi manevrlərdən, çevik taktikadan, region ölkələrinə müəyyən güzəştlərdən, həmin ölkələrə iqtisadi yardımdan və hərbi müdaxilədən istifadə etdi. ABŞ-m təşəbbüsü ilə Kuba 1962-ci ildə ADT-dən çıxarıldı. 1964-cü ildə isə ADT Kubaya qarşı iqtisadi sanksiyalar tətbiq etdi. Lakin, Latın Amerikasında "yeni inqilablar" başlanması ABŞ-a sərfəli deyildi.

Ona görə də ABŞ 1963-cü ildən region ölkələrinə münasibətini xeyli sərtləşdirdi. Conson Latın Amerikasında "böyük dəyənək" siyasətinə qayıtdı (3,22) 1964-cü ildə ABŞ hökuməti Latın Amerikasındakı siyasətini əsaslandıraraq "Mann-Conson" doktrinasını irəli sürdü. Bu doktrina ABŞ-m regiondakı diktatura rejimlərini fəal müdafiə etməsini və onların devrilməsinə yol verməməsini nəzərdə tuturdu (5,1).

1965-ci ildə Dominikan Respublikasında ordu növbəti çevriliş etdi. ABŞ buna mane olmaq üçün "Amerika vətəndaşlarını müdafiə" adı ilə oraya qoşun göndərdi. SSRİ və bir neçə digər ölkə ABŞ-ın hərəkətini tənqid etdi. Dominikandakı vətəndaş müharibəsi BMT Təhlükəsizlik Şurasında müzakirə olundu.

ABŞ Amerika Dövlətləri Təşkilatını da Dominikan hadisələrinə cəlb etmək qərarına gəldi. 1965-ci ilin mayında ADT-nin müşavirəsində Dominikan Respublikasında sülhü bərpa etmək üçün "Amerikaarası silahlı qüvvələr" in yaradılması haqqında qərar qəbul edildi. Bütün bu məsələslər Fətəliyev M; Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. 1945-2003. B.2008. əsərində geniş şəkildə öz əksini tapmışdır (1).

Müşavirədə Meksika, Çili, Uruqvay, Ekvador və Peru kollektiv silahlı qüvvələrin yaradılmasına etiraz etdilər. Braziliya, Honduras, Nikaraqua, Paraqvay və Kosta-Rika isə Dominikan Respublikasına qoşun göndərməyə razı oldu. Lakin, belə hadisələr bütövlükdə Latın Amerikasında ədalətli beynəlxalq qaydalar uğrunda mübarizənin qarşısını ala bilmədi. SSRİ Latın Amerikası ölkələrinin ABŞ-a qarşı narazılığından istifadə edərək region ölkələri ilə əlaqələrini genişləndirdi. ABŞ isə SSRİ-nin Latın Amerikası ölkələri ilə əlaqələrinin genişlənməsinə mane olmağa çalışırdı.

Regionda demoqrafik vəziyyət təbii artımın yüksəkf səviyyəsi ilə xarakterizə edilir. Bu özünü daha çox tropik zonada göstərir. Son on ilin (1995-2005) təhlili göstərir ki, regionda təbii artım tədricən azalmağa meyllidir. Lakin, əksər ölkələrdə təbi artımın sürəti keçən əsrin 70-ci illəri müqayisəd heç də azalmamışdır. Bəzi tədqiqatçılar bunu gənclərin ilkin nigaha aludəçiliyi ilə izah edirlər.

Bəzi tədqiqatçılar təbii artımın yüksəkliyini regionda katolik kilsəsinin fəal təbliğatında, əhalinin savadsızlığında, sosial-iqtisadi inkişafın zəifliyində tibbi xidmətin və əhali arasında aparılan izahat işlərinin səviyyəsinin aşağı olmasında görürlər.

Son illər bir sıra region ölkələri demoqrafik siyasətin həyata keçirilməsində müəyyən fəallıq göstərirlər. Proqnozlar göstərir ki, 2010-20 l5-cu illərdə region ölkələrin əksəriyyətində, Boliviyadan başqa, əhalinin təbii artımı sabitləşəcəkdir.

Boliviyada isə təbii artımın yüksək səviyyəsi uzun ömürlüyün artması hesabına hələ xeyli müddət saxlanılacaqdır. Latın Amerikasının ərazisində məskunlaş-manın xarakterində, əhalinin sıxlığında da fərqli cəhətlər vardır.

Sürətlə inkişa edən Braziliya, Argentina, Meksika ilə yanaş Venesuela, Çili, Uruqvayda hətta adambaşına milli gəlir bir sıra Cənubi Avropa ölkələrinin səviyyəsinə çatmış, hətta bəzilərini belə ötüb keçmişlər. Bununla belə, region ölkələrindən Boliviya və Paraqvayı bəz Afrika və Asiya ölkələri ilə müqayisə etmək olar. Regionun iri sənayeləşmiş ölkələri olan Braziliya, Argentina və Meksikada nəinki sənaye istehsalının həcmi, hətta xarici ticarətdə hazır məhsulun ixrac miqdarı da artmaqda davam edir.

Yüksək inkişaf edən iqtisadiyyata malik olan bu "üçlük" nəinki dünya bazarında getdikcə daha çox maşınqayırma məhsulları ilə çıxış edir, hətta xarici ticarətdə müsbət saldoya malik olurlar. Bəzi mütəxəssislər onları inkişaf etmiş ölkələrlə eyni səviyyədə

görürlər. Bu ölkələrdə avtomobil, təyyarə, gəmi istehsalı formalaşmış sənaye sahəsinə çevrilmiş, hərbi sənaye və atom energetikası yaranmışdır.

Tam silsiləli metallurgiya zavodları da bu üç ölkədə fəaliyyətdədir. Digər ölkələrin metallurgiya müəssisələri emaledici sənaye rayonlarında cəmləşmişdir. Regionda əlvan metallurgiya nisbətən inkişaf etmiş sahələrdən olub, daha yaxşı və aparıcı sahə kimi Çili, Pena və Boliviyada inkişaf etmişdir. Regionda maşınqayırma sənayesinin nisbətən inkişaf etmiş sahəsi nəqliyyat maşınqayırmasıdır.

Bu sahə ümumi maşınqayırma məhsulu dəyərinin təxminən yarısını verir. Bir çox ölkələrdə istehsal olunan avtomobil müəssisələri daxili bazarı təmin etməyə istiqamətlənmişdir. Gəmiqayırma regionun bir çox ölkələrində mövcud olsa da Braziliyada daha yaxşı inkişaf etmişdir. Burada iri tonnnajlı gəmi istehsalı ilə yanaşı iri gəmi təmiri müəssisələri də vardır.

Regionda aviasiya sənayesi iri sənayeləşmiş ölkələrdə mövcuddur və əsasən də kiçik təyyarə və vertelyot istehsal edir. Onlara aid olan mühərriklər isə xaricdən gətirilir. Region ölkələrinin demək olar ki, əksəriyyətində bu və ya digər dərəcədə kənd təsərrüfatı maşmqayırması inkişaf etmişdir.

Braziliya, Argentina və Meksikada traktor istehsal edilir. Son illər region ölkələrində elektronika və radioelektronika sənaye sahələri inkişaf etməyə başlamışdır. Qonşu ölkələrə bu məhsulların əsas ixracatçısı Argentina və Braziliyadır. Lakin, region ölkələrinin bu məhsullara olan tələbatını ödəyə bilmədikləri üçün ABŞ, Yaponiya və Qərbi Avropadan da idxal edilir.

Son illər kimya və neft-kimya sənaye sahələri daha sürətlə inkişaf etməyə başlamışdır. Neftayırma müəssisələrinin istehsal gücünün getdikcə artması neft-kimya sənayesinin də inkişafına təkan verir. Regionda neftayırma sənayesi Venesuela və Meksikada daha yaxşı inkişaf etmişdir.

Son illərdə Braziliya və Argentinada da inkişaf etmiş neftemalı sənayesi formalaşmışdır. Bütövlükdə region ölkələrinin sənayesinin strukturunda əsas yeri ənənəvi sənaye sahələri tutur.

Yeyinti sənayesi həm istehsal olunan məhsuluna, həm də müəssisələrində çalışanların sayına görə fərqlənir. Ət istehsalı, emalı və ixracı regionda daha yaxşı inkişaf etmiş sənaye sahələrindən olub, Meksika, Argentina, Brazihya, Uruqvay və Paraqvayda daha qabarıq şəkildədir. Hətta ət istehsalı və ixracının həcminə görə Argentina Avstraliyadan sonra dünyada ikinci yeri tutur.

Region ölkələri müxtəlif növ içkilərin, tütün, süd və balıq məmulatlarının emalı və ixracı üzrə də məşhurlaşmaqdadırlar. Latın Amerikasının bir çox ölkələrinin sənayesində dağ-mədən sənayesi xüsusilə fərqlənir. Burada son illər daha sürətlə inkişaf edən sahə neft hasilatıdır. Meksika, Venesuela, Argentina, Ekvador, Kolumbiya xüsusilə fərqlənirlər (6,1).

Son illər Braziliyda da neft sənayesi yeni yataqlar hesabına genişlənməkdədir. Peru və Çilidə dağ-mədən sənayesinin əsasını mis sənayesi təşkil edir və beynəlxalq iqtisadi əlaqələrində mühüm rol oynayır.

Ümumi daxili məhsul istehsalında kənd təsərrüfatı istehsalının xüsusi çəkisi getdikcə azalsa da, bütövlükdə, region ölkələrinin əksəriyyətinin iqtisadi həyatında hələ ki, əsas yerlərdən birini tutmaqdadır. Bir çox ölkələrin ixrac məhsulları içərisində hələ da banan, qəhvə, pambıq, şəkər qamışı, buğda, ət va sitrus meyvələri üstünlük təşkil edir.

Argentinadan savayı, bir çox region ölkələri əsas ərzaq məhsullarının id-xalına olduqca çoxlu miqdarda kapital sərf edirlər. Maraqlı cəhəti odur ki, regionda kənd təsərrüfatı iri latifundiyalara əsaslanır, onlar da dünya bazarına is-tiqamətlənmişdir. Torpaqların çox hissəsi xarici şirkətlərin əlindədir. Latifundiya sahibləri ucuz işçi qüvvəsinə, texnikiya nisbətən daha çox üstünlük verir. Kiçik torpaq sahibləri isə qiymətli texnikadan, kübrə va elmin nailiyyətlərindən istifadə edə bilmir.

Düzdür bu heç də əksər ölkələr üçün xarakterik deyildir. Belə ki, son on ildə bir çox ölkələrdə kapitalist istehsal münasibətləri inkişaf etdirilməyə, texnika, kübrə və müasir aqrar münasibətlərindən səmərəli istifadə edilməyə başlanmışdır. Permer tipini xatırladan belə təsərrüfatlar artıq Meksika, Argentina, Braziliya, Çili və Venesuelada özünü göstərməyə başlamışdır. Onlarda da əmtəəlik məhsul xarici bazarlara istiqamətlənməkdədir.

Latın Amerikasında balıqçılıq son 15-20 ildə sürətlə inkişaf etməyə başlamışdır. Sahilyanı ərazilərdə balıq ovu və emalı çox da iri olmayan gəmilərlə həyata keçirilir.

Braziliya, Çili, Argentina və bəzi region ölkələrinin iqtisadiyyatında meşə təsərrüfatının rolu az deyildir tikinti, mebel, kağız istehsalı ilə yanaşı, kauçuk, şirə və S. istehsalında da xüsusi əhəmiyyətli ağac növləri vardır.

Latın Amerikası ölkələrinin iqtisadi həyatında beynəlxalq iqtisadi əlaqələrin olduqca böyük əhəmiyyəti vardır. Uzun illər boyu müstəmləkə dövrü yaşayan, xarici bazarda xammalla çıxış edən, dar ixtisasa malik olmuş, indi isə müstəqillik şəraitində xarici kapitaldan asılı vəziyyətdə fəailyyət göstərən ölkələr getdikcə daha fəal surətdə dünya təsərrüfatına inteqrasiya olunur. Qeyd etdiyimiz məsələlərə Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B.2005. kitabında da toxunulmuşdur (2).

Beləliklə, Lindon Consonun həyata keçirdiyi Latın Amerikası siyasəti ABŞ-n regionda nüfuzunu kifayət qədər gücləndirdi. ABŞ rəhbərliyi belə qənaətdə idi ki, artıq Latın Amerikası regionu ABŞ-ın təsir dairəsinə düşmüşdür. Ancaq, region ölkələrinin böyük əksəriyyəti ABŞ-ın təsirini qəbul etmək istəmir, onun siyasi və iqtisadi gücünə qarşı müxtəlif vasitələrdən istifadə etməyə çalışırdılar.

### *Ədəbiyyat*


1. Fətəliyev M; Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. 1945-2003. B.2008.
2. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B.2005.
3. Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi.II hissə. 1945-2007-ci illər.
4. www.google.az. ABŞ-da minimum əmək haqqı.
5. www.google.az. “Mann-Conson” doktrinası.
6. www.google.az. Region ölkələri.


## В ПЕРВЫЕ ГОДЫ ПРАВЛЕНИЯ ЛИНДОНА ДЖОНСОНА ПОЛИТИКА США В ЛАТИНОАМЕРИКАНСКОМ РЕГИОНЕ

***Бахтиярлы Гусейн Алисахиб***

***Резюме***

В статье рассматривается латиноамериканская политика, играющая ведущую роль во внешней политике президента США Линдона Джонсона. Отмечается, что Джонсон возвращается к политике «большой палки». Вскоре он проникнет во внутреннюю политику Латинской Америки. Это вызывает протесты в регионе. Однако США не отказываются от своей политики.

## IN THE EARLY YEARS OF LYNDON JOHNSON'S RULE, THE UNITED STATES POLITICS IN THE LATIN AMERICAN REGION

***Bakhtiyarlı Huseyn Alisahib***

***Summary***

The article examines Latin American policy, which plays a leading role in the foreign policy of US President Lyndon Johnson. It is noted that Johnson is returning to the “big stick” policy. It will soon penetrate the domestic politics of Latin America. This is causing protests in the region. However, the United States does not back down from its policy.

***Rəyçi:dosent Etibar Musayev***
***Ümumi tarix kafedrsının 15 fevral 2023-cü il tarixli iclasın 07 saylı protokolu***